**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

**Təsdiq edirəm : ________________Kafedra müdiri: H.Ə.Məmmədov**

**Tarix : 08 sentyabr 2022**

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Beynəlxalq iqtisadi münasibətlər, 4 kredit |
| | **Fakültə** | İdarəetmə |
| | **İxtisas** | Beynəlxalq münasibətlər |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat səviyyəsi |
| | **Kurs** | III |
| | **Semestr** | V |
| | **Təlimçi** | Məmmədzadə Tural Tahir oğlu |
| | **e-mail** | turalmemmedov521@gmail.com |
| | **Telefon** | (051) 785-99-26 |
| | **Dərs günləri və saatları** | II gün 3-cü saat, IV gün 2-ci saat |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Baza/ Seçmə** | Baza fənni | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1. Axundov N.A., Məmmədov C.A. Dünya dövlətlərinin əsas coğrafi, siyasi və iqtisadi göstəriciləri. Bakı, 2000.<br>2. Suat İlhan. Türkiyənin və türk dünyasının geopolitiki. Ankara, 1993.<br>3. Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>4. Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>5. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və Beynəlxalq iqtisadi münasıbətlər. Bakı, 1999.<br>6. Vəliyev D. Beynəlxalq iqtisadiyyat. Bakı,1997.<br>7. Kərimov C., Gənciyev G. Dünya iqtisadiyyatı (Mühazirə toplusu). Bakı, 2001<br>8. Nuriyev C.Q. Beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi. “Qanun”, Bakı, 2000<br>9. Bayramov Ə. Regional iqtisadiyyat.Bakı,1994.<br>10. Bayramov Ə. Reginal iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı,1997 | |
| **İstifadə ediləcək web səhifələr** | İnternet resursları:<br>1. Beynəlxalq və regional təşkilatlar: www.wto.org (ÜTT-WTO); www.unctad.org (UNCTAD); www.worldbank.org (Dünya Bankı – WORLD BANK); www.undp.org (UNDP); www.adb.org; www.imf.org (İMF); www.oecd.org (OECD); www.nafta.org (NAFTA)<br>2. BMT-nin Regional İqtisadi Komissiyaları: www.unece.org (Economic Commission for Europe - UNECE); www.uneca.org (Economic Commission for Africa - UNECA); www.eclac.org (Economic commission for Latin America and the Caribbean - ECLAC); www.escap.org (Economic and Social Commission for Asia and the Pacific - ESCAP); www.escwa.org (Economic and Social Commission for Western Asia - ESCWA)<br>3. Milli internet resursları: www.socar.az (ARDNŞ); www.nba.az (AMB); www.maliyye.gov.az (AR MN); www.economy.gov.az (AR İSN); www.azstat.org (AR DSK); www.customs.gov.az (AR DGK) | |

<table>
<tr><td>Fənnin xülasəsi</td><td colspan="2">Dünya ölkələri təbii, maddi, iqtisadi ehtiyatlarına görə biri-birindən fərqlənirlər. Bununla yanaşı, coğrafi mövqeyinə görə, iqlim şərtlərinə görə, əmək ehtiyatlarına görə biri-birini təkrarlamırlar. Dünyanın hər bir ölkəsində iqtisadi potensial müxtəlifdir və bu fərq daim nəzərə çarpacaq şəkildə inkişaf edir. Dünya iqtisadiyyatının subyekti kimi ayrı-ayrı dövlətlərlə ərazi əmək bölgüsü və beynəlxalq əmək bölgüsü obyektiv zərurət kimi istehsal-təsərrüfat fəaliyyətini bir-birindən nə qədər ayırıb təcridləşdirsə də, onların qarşılıqlı asılılığını bir o qədər gücləndirir.</td></tr>
<tr><td>Fənnin məqsədləri</td><td colspan="2">Beynəlxalq iqtisadi münasibətlər iqtisadi və siyasi kateqoriya olmaqla vahid bir sistem təşkil edir. Bu sistem müəyyən nizama və qaydaya əsaslanmaqla ümumi bir məqsədə xidmət edir. Beynəlxalq arenada mövcud olan ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar və transmilli kompaniyalar BİM-in subyektlərini təşkil edir.<br>Fənnin tədrisi məqsədləri:<br>1. Beynəlxalq mal alış-verişinə dair çətinlikləri aradan qaldırmaq və beynəlxalq inkişafı təşviq etmək üçün lazımi tədbirlər kompleksinin öyrənilməsi;<br>2. İqtisadi birləşmə,sərbəst ticarət və iş birliyi münasibətlərini inkişaf etdirmək və sıx iqtisadi iş birliyini stimullaşdırmaq əsasında dünya iqtisadiyyatına inteqrasiya etmək proseslərinin öyrənilməsi;<br>3. Turizm də daxil olmaqla xarici ticarət fəaliyyətlərində beynəlxalq xidmət və mal alış-verişlərində valyutada nəzarət və məhdudlaşdırılmalara, mərhələ-mərhələ üzən valyuta sisteminin tətbiq edilməsinə, spekulyativ xarakterli sərmayə hərəkətlərinə mane olmaq;<br>İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf modellərini tətbiq etməyi öyrənmək;</td></tr>
<tr><td>Öyrənim nəticələri</td><td colspan="2">1. Ölkənin dünya iqtisadiyyatına inteqrasiya edilməsinin təmin edilməsi istiqamətində lazımi biliklərə yiyələnəcəklər;<br>2. Meqaiqtisadiyyatın ümumi prinsip və metodlarının əsaslarını öyrənəcəklər;<br>3. Trans Milli Korporasiyalar, Beynəlxalq təşkilatlar və Beynəlxalq hüququn digər iqtisadi subyektlərinin milli iqtisadiyyatda rolunu analiz edəcəklər;<br>4. Mikroiqtisadi subyektlərin dünya bazarında rəqabətqabiliyyətli məhsullarla çıxış etməsinin mahiyyətinin nədən ibarət olduğunu anlayacaqlar;<br>5. Qlobal iqtisadi problemlərin dünya iqtisadiyyatına təsiri və bu problemlərin birgə həlli yollarını araşdıracaqlar.<br>6. Beynəlxalq Əmək Bölgüsündə dünya ölkələrinin iştirakını və onların müqayisəli və nisbi üstünlüklərini təhlil edəcəklər.<br>7. Əldə edilmiş biliklər əsasında peşəkar fəaliyyət üçün zəruri olan analitik təhlillər apara, proqnozlar verə və dünya iqtisadiyyatına sistemli yanaşmaq bacarıqlarına malik olacaqlar.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>Tələbələrə fərdi mövzuda təqdimatlar verilir və müzakirə aparılır</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td>Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilir.</td></tr>
<tr><td>Simulyasiya</td><td>Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir</td></tr>
<tr><td>Layihə</td><td>Tələbələrə dərsə aid fərdi laborator işləri verilir və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilir</td></tr>
<tr><td>Digər</td><td>Tədris prosesində fərdiləşdirilmiş (oyunlar üçün materiallar, testlər) və vizual (slaydlar, sxemlər, qrafiklər, şəkillər, sənəd nümunələri) materiallar kimi təlim metodlarından istifadə edilir</td></tr>
<tr><td rowspan="6">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
</table>

<table>
<tr><td rowspan="4"></td><td colspan="2">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td>2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla”</td></tr>
<tr><td>Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td>Qiymətləndirmə metodları</td><td colspan="2">Tapşırıqlar: Tapşırıq olaraq tələbələrə aşağıda qeyd olunmuş sərbəst mövzular verilir və semestr ərzində qiymətləndirilir.<br><u>Sərbəst iş mövzuları:</u><br>1. Son orta əsrlərin ümumiqtisadi xarakteristikası<br>2. Qərbi Avropada bazar iqtisadiyyatının genezisi<br>3. Böyük coğrafi kəşflərin sosial – iqtisadi nəticələri<br>4. Müstəmləkə sisteminin formalaşması<br>5. Şərq və Qərb təsərrüfatçılıq modelləri<br>6. Şərq və Qərb ölkələri orta əsrlərdə: “istehsal iqtisadiyyatının” inkişaf xüsusiyyətləri<br>7. Fransanın iqtisadiyyatı<br>8. İngiltərənin iqtisadiyyatı<br>9. Almaniyanın iqtisadiyyatı<br>10. Niderlandın iqtisadiyyatı<br>11. Yaponiyanın iqtisadiyyatı<br>12. Çinin iqtisadiyyatı<br>13. Türk dövlətlərinin iqtisadi sistemi<br>14. Dünya bazarının təşəkkülü<br>15. Dünya iqtisadiyyatında sistemyaradan element: ticarət tarixi müstəvidə<br>16. Dünya iqtisadiyyatının genezisi : inhisar fenomeni<br>17. İnhisarçı yaranış bazar prosesinin məntiqi nəticəsidir<br>18. Böyük depressiya (1929-1933)<br>19. Qərb ölkələrində iqtisadi artım siyasəti (1945-1983)<br>20. Dünya iqtisadiyyatı: Elmi-texniki inqilablar seriyası<br>21. “İstehsal” iqtisadiyyatından “xidmət” iqtisadiyyatına keçid<br>22. Dünya iqtisadiyyatı: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr: iki əsrlik (XIX-XX) inkişaf dinamikası<br>23. Dünya sosializm sisteminin süqutu: keçid iqtisadiyyatlı ölkələr qrupu<br>24. Dünya iqtisadiyyatının inkişafında V mərhələ: “informasiya iqtisadiyyatı”<br>25. Dünya iqtisadiyyatının inkişaf proqnozu<br>26. İqtisad elmi böhran müstəvisində<br>27. Yeni qlobal inkişaf paradiqması<br>28. Problemin qoyuluşu<br>29. Nəzəri problemlər<br>30. Yeni paradiqma: keçid situasiyasının konseptual sərhədlər<br><br>Təqdimat: Slayd formasında hazırlanaraq təqdim edilən təqdimatlar “GÖRÜRƏM, EŞİDİRƏM VƏ YADDA SAXLAYIRAM” prinsipinə əsasən qiymətləndirilir.</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="2">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.</td></tr>
</table>

<table>
<tr><td colspan="2"></td><td colspan="2">Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər.</td></tr>
<tr><td colspan="4">İlkin cədvəl</td></tr>
<tr><td>Həftə</td><td>Tarix</td><td>Mühazirə mövzuları</td><td>Dərslik / Tapşırıq / Ədəbiyyat</td></tr>
<tr><td></td><td></td><td>Mövzu 1. Dünya iqtisadiyyatının və ölkələrarası iqtisadi münasibətlərin tarixi<br>Müasir beynəlxalq iqtisadi münasibətlərin mahiyyətinin izahına keçməzdən əvvəl dünya iqtisadiyyatının inkişafının tarixi mərhələlərinə qısaca da olsa nəzər salmaq məqsədəuyğun olardı. Qeyd edək ki, dünya iqtisadiyyatının tarixinin öyrənilməsi iqtisadi fikir prinsiplərini formalaşdırmağa, müasir sosial və iqtisadi problemlərin tarixi köklərini görməyə, tarixən toplanmış təsərrüfat təcrübəsinə əsaslanaraq cari iqtisadi vəziyyəti adekvat surətdə qiymətləndirməyə və düzgün qərarlar qəbul etməyə imkan verir. Dünya iqtisadiyyatının inkişafının tarixi mərhələlərə bölünməsində müxtəlif nəzəriyyələr mövcuddur</td><td>Ədəbiyyat<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>- Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və Beynəlxalq iqtisadi münasıbətlər. Bakı, 1999.<br>Tapşırıq<br>- Beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında əsas rol oynayan proseslər.</td></tr>
<tr><td>2.</td><td></td><td>Mövzu 2. Beynəlxalq iqtisadi münasibətlərin (BİM) mahiyyəti, formaları.<br>Bəşər cəmiyyətlərinin müxtəlif təşkilati formaları dövründə iqtisadi əlaqələrin inkişafı böyük tarixə malikdir ki, bu barədə əvvəlki mövzuda məlumat verilib. İlk vaxtlarda bəsit məzmun daşıyan iqtisadi münasibətlər ən müxtəlif amilllərin təsiri nəticəsində daim genişlənərək və inkişaf edərək hazırkı formasına gəlib çatmış, bütün ölkələrin maraqlarına və mənafelərinə uyğun olan mürəkkəb münasibətlər sistemi halına düşmüş, beynəlxalq iqtisadi münasibətlər formalaşmışdır.</td><td>Ədəbiyyat<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>- Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və Beynəlxalq iqtisadi münasıbətlər. Bakı, 1999.<br>Tapşırıq<br>Dünya iqtisadi sistemində İEOÖ və İEÖ-in rolu və mövqeyi</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| **3.** | | **Mövzu 3. Beynəlxalq iqtisadi münasibətlərin dünya iqtisadiyyatında rolu və əhəmiyyəti**<br>Müasir dünya iqtisadiyyatının indiki durumu müxtəlif amil və şərtlərin təsiri altında formalaşmışdır. Onların içərisində konkret bir dövlətin və dövlətlərqrupunun təsiri heç də az əhəmiyyət kəsb etməmişdir. Dövlətin hansı üsullarla idarə edilməsi, onun sosial-iqtisadi vəziyyəti, demokratiyaya, insan amilinə, korrupsiyaya, istehsal-alət və vasitələrinə olan münasibəti və bu kimi cəmiyyətin bir dövlət daxilində idarə rdilməsilə baglı digər məsələlər dövlətin öz iqtisadiyyatına təsir göstərdiyi kimi dünya iqtisadiyyatına da güclü təsir göstərmişdir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>- Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və Beynəlxalq iqtisadi münasıbətlər. Bakı, 1999.<br>**Tapşırıq**<br>Müasir dünya iqtisadiyyatının inkişafetdirici amillərinin formalaşması |
| **4.** | | **Mövzu 4. Beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlərin obyektiv əsasıdır**<br>Beynəlxalq əmək bölgüsü (BƏB) BİM-in mahiyyətini açan əsas kateqoriyadır. Bu özünü onda göstərir ki, dünyanın istənilən ölkəsi bu və ya digər formada BƏB-ə cəlb olunub. Müasir dünyada BƏB-də iştirak ölkənin qarşısında duran daxili və xarici vəzifələrin yerinə yetirilməsinin, ölkələr arasında qarşılıqlı faydalılığa əsaslanan münasibətlərin qurulmasının vacib vasitəsidir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>**Tapşırıq**<br>BƏB-in mahiyyəti |
| **5.** | | **Mövzu 5. Beynəlxalq ticarət və ticarət siyasəti**<br>BİM-in əsas formalarından biri olan beynəlxalq ticarətin ilk işartıları hələ quldarlıq dövründə müşahidə edilməyə başlanmışdır. Buna görə də o BİM-in tarixən birinci və hazırda ən inkişaf etmiş forması sayılır. Beynəlxalq ticarət dedikdə bütün dünya ölkələrinin xarici ticarətlərinin məcmusunu əks etdirən əmtəə-pul münasibətləri sferası başa düşülür. Başqa sözlə, beynəlxalq ticarət müxtəlif ölkələrin satıcıları və alıcıları arasında əmək məhsulları (əmtəə və xidmətlər) ilə mübadilə sistemidir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>**Tapşırıq**<br>Beynəlxalq ticarət prosesində əmtəə axınlarının istiqaməti |
| **6.** | | **Mövzu 6. Beynəlxalq iqtisadi münasibətlər sistemində kapitalın beynəlxalq hərəkəti**<br>Dünya təsərrüfatının inkişafının müasir mərhələsində beynəlxalq iqtisadi münasibətlərin əsas inkişaf amillərindən biri kimi kapital ixracı, onun beynəlxalq hərəkəti çıxış edir. Beynəlxalq iqtisadi münasibətlərin beynəlxalq ticarət, elmi-texniki məhsullarla beynəlxalq mübadilə kimi formaları valyuta-maliyyə aspektləri ilə müşaiyət olunur: ixrac-idxal əməliyyatlarının reallaşdırılması zamanı beynəlxalq hesablaşmalar həyata keçirilir və ya beynəlxalq kreditlər tələb edilir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br>**Tapşırıq**<br>- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının |

| | | | |
|---|---|---|---|
| | | | (İƏİT) fəaliyyət prinsipləri |
| **7.** | | **Mövzu 7. Beynəlxalq valyuta-maliyyə münasibətləri.**<br>XX əsrin ortalarından etibarən beynəlxalq valyuta münasibətləri öz inkişafında yeni impuls qazanmışdır. Dünya iqtisadiyyatının beynəlmiləlləşməsi və qloballaşması ölkələr arasında ticarət-iqtisadi mübadilənin inkişafına, valyuta münasibətlərinin inkişaf etməsinə gətirib çıxarmışdır. Valyutaların sabitliyi, onların bir-birlərinə və ehtiyat valyutalarına nisbəyən yol verilən tərəddüd hədləri dünya təsərrüfatının inkişafının vacib problemlərinə çevrilmişdir.dünya təsərrüfat əlaqələrinin fasiləsiz həyata keçirilməsi üçün səmərəli valyuta mexanizminini yaradılması beynəlxalq maliyyə sisteminin mərkəzi vəzifəsinə çevrilmişdir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) fəaliyyət prinsipləri |
| **8.** | | **Mövzu 8. Dünya valyuta sistemi: mahiyyəti, növləri və funksiyaları**<br>Milli təsərrüfatlar arasında ödəmə-hesablaşma əməliyyatlarını müəyyən edən pul münasibətlərinin məcmusu beynəlxalq valyuta münasibətləri adlanır. Bu anlayışa həmçinin pulların dünya pulu kimi funksiya göstərməsi ilə əlaqədar olan iqtisadi münasibətlərin məcmusu kimi də tərfi vermək olar. Pullar dünya pulu kimi xarici ticarətə, kapitalın miqrasiyasına, mənfəətin investisiyaya çevrilməsinə, subsidiya və borcların verilməsinə, elmi-texniki mübadiləyə, turizmə, dövlət və özəl pul köçürmələrinə xidmət edir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- Beynəlxalq valyuta münasibətlərinin müasir vəziyyəti |
| **9.** | | **Mövzu 9. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası**<br>XX əsrin ikinci yarısında dünya ictimaiyyətinin həyatında müşahidə edilən xarakterik meyllərdən biri də əhalinin kütləvi miqrasiyasıdır. Əmtəə, xidmət və kapital bazarları ilə yanaşı işçi qüvvəsinin beynəlxalq bazarı da mövcuddur. Bir ölkədən digərinə hərəkət edən işçi qüvvəsi özünü əmtəə kimi təqdim edir və beləliklə də, beynəlxalq iqtisadi münasibətlər sisteminin tərkib hissəsinə çevrilmiş beynəlxalq əmək miqrasiyası baş verir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- Miqrant axınının iqtisadi və sosial cəhətdən mənfi və müsbət tərəfləri |
| **10.** | | **Mövzu 10. Texnologiyaların beynəlxalq ötürülməsi beynəlxalq iqtisadi münasibətlərin forması kimi**<br><br>Aparılan tədqiqatlar göstərir ki, hər 7-10 ildən bir elmi tədqiqatlara çəkilən xərclər iki dəfə artır. Bununla yanaşı, elmi tədqiqatlar özlüyündə nisbətən o qədər də baha olmur. Əsas xərc onların sənayeyə tətbiqi zamanı çəkilir. Mütəxəssislərin hesablamalarına görə, xalis elmi fundamental tədqiqatlara çəkilən xərcləri 1 vahid kimi götürsək, | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq** |

| | | | |
|---|---|---|---|
| | | praktiki tətbiq sferalarına istiqamətlənmiş fundamental tədqiqatlara çəkilən xərclər 3 vahidə, tətbiqi tədqiqatlara çəkilən xərclər 6 vahidə, konkret texnoloji hazırlıqlara çəkilən xərclər isə 100 vahidə bərabər olar. Bu cür xərcləri dünyanın heç bir ölkəsi təkbaşına çəkə bilməz. Ölkələrdən heç biri elm və texnikanın bütün və ya əksər sahələrində özünə üstün mövqeləri təmin edə bilməz. | - Texnologiya anlayışına adətən hansı qruplar aid edilir |
| **11.** | | **Mövzu 11. Beynəlxalq və transmilli şirkətlər, onların beynəlxalq iqtisadi münasibətlərdə rolu**<br><br>XX əsrin sonlarında beynəlxalq şirkətlər dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin inkişafının vacib elementlərindən birinə çevrilmişdilər. son onilliklərdə onların sürətli inkişafı istehsalın və kapitalın beynəlmiləlləşməsi proseslərini, dünya təsərrüfatı əlaqələrinin qloballaşmasını əks etdirir. Beynəlxalq şirkətlər dünya iqtisadiyyatının —lokomotivlərin rolunu oynamağa başlayırlar. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- Beynəlxalq şirkətlərin yaranması dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin inkişafına təsiri |
| **12.** | | **Mövzu 12. Beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsinin formalaşması, təkamülü və müasir sistemi**<br>Təsərrüfat həyatının beynəlmiləlləşməsi, dünya iqtisadiyyatında ölkələrin qarşılıqlı asılılığının güclənməsi, qlobal problemlərin yaranması və kəskinləşməsi beynəlxalq iqtisadi münasibətlərin məqsədyönlü tənzimlənməsini obyektiv zərurətə çevirmişdir. Dünya təsərrüfatının ayrı-ayrı sahələrinin çoxtərəfli dövlətlərarası tənzimlənməsi hələ ikinci dünya müharibəsinə qədər meydana gəlmişdir. Lakin, dövlətlərarası tənzimləmə beynəlxalq iqtisadi münasibətlərdə yalnız müharibədən sonrakı illərdə ciddi amilə çevrilmişdir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- BİM-in təkamülündə mühüm rol oynamış qlobal hadisələr |
| **13.** | | **Mövzu 13. Beynəlxalq iqtisadi münasibətlərin təşkilati-hüquqi əsasları və tənzimlənməsi**<br>Dövlətlər arasında iqtisadi əlaqələrin, ilk növbədə də ticarət əlaqələrinin beynəlxalq-hüquqi tənzimlənməsi qədim zamanlarda meydana gəlmişdir. Ticarət münasibətləri qədimdən beynəlxalq müqavilələrin əsas predmetlərindən biri kimi çıxış etmiş, azad ticarət münasibətləri mənəvi və hüquqi prinsip kimi tanınmışdır. E.ə. II əsrdə qədim Roma tarixçisi Flor qeyd etmişdir: —Ticarət əlaqələrinin kəsilməsi insan nəsli ittifaqının pozulması deməkdir. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- XIX-XX əsrlərdə beynəlxalq iqtisadi və elmi-texniki əməkdaşlığın yeni |

| | | | |
|---|---|---|---|
| | | | formalarının meydana gəlməsi |
| **14.** | | **Mövzu 14. Yeni beynəlxalq iqtisadi qayda və iqtisadi təhlükəsizlik problemləri**<br>Qlobal iqtisadiyyat ona məxsus olan ziddiyyət və münaqişələrin təhlükəli surətdə kəskinləşməməsi üçün dövlətlərarası münasibətlər üzrə formalaşmış qaydalarda dəyişikliklər edilməsinə ehtiyac duyur. Qloballaşma prosesinin idarəedilməsinin əsas vəzifəsi onun risqlərinin və xərclərinin məhdudlaşdırılmasından və mənfəətin maksimumlaşdırılmasından ibarətdir ki, bu da mövcud qaydalarda müəyyən dəyişikliklər edilməsi ehtiyacını ortaya çıxarır. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>- 1970-ci illərdə beynəlxalq iqtisadi münasibətlər sistemində yeni beynəlxalq iqtisadi qayda problemi |
| **15.** | | **Mövzu 15. Birləşmiş Millətlər Təşkilatı və beynəlxalq iqtisadi münasibətlərdə onun rolu**<br>Birləşmiş Millətlər Təşkilatı (BMT) özünün müasir görünüşünü uzunmüddətli təkamül yolu nəticəsində əldə etmişdir. BMT sisteminin ilk elementləri hələ XIX əsrdə meydana gəlmişdir. XIX əsrin ortalarında ilk beynəlxalq hökumətlərarası təşkilatlar yaradılmışdır. Bu təşkilatların yaranması əsasən iki səbəbdən irəli gəlmişdir. Birincisi, burjua-demokratik inqilablar nəticəsində yaranan suveren dövlətlər millü müstəqilliyə can atırdılar. Ikincisi, elmi-texniki inqilabın nailiyyətləri dövlətlərin qarşılıqlı asılılığına gətirib çıxarırdı. | **Ədəbiyyat**<br>- Səmədzadə Z. Dünya iqtisadiyyatı: Çin möcüzəsi. Bakı, 2001.<br>- Feyzullabəyli İ.Ə., İbişov E.İ.,İsrafilov H.A.Beynəlxalq ticarət işi. Dərslik. Bakı, 2001.<br><br>**Tapşırıq**<br>BMT-nin dünya iqtisadiyyatına təsiretmə gücü |
| | | **CƏMİ: 30 saat** | |

| *№* | **SEMİNAR – məşğələlərinin adı** | saat | **Tarix** | **Qeyd** |
|---|---|---|---|---|
| 1. | Dünya iqtisadiyyatının və ölkələrarası iqtisadi münasibətlərin tarixi | 2 | | |
| 2. | Beynəlxalq iqtisadi münasibətlərin (BİM) mahiyyəti, formaları. | 2 | | |
| 3. | Beynəlxalq iqtisadi münasibətlərin dünya iqtisadiyyatında rolu və əhəmiyyəti | 2 | | |
| 4. | Beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlərin obyektiv əsasıdır | 2 | | |
| 5. | Beynəlxalq ticarət və beynəlxalq ticarət siyasəti | 2 | | |
| 6. | Beynəlxalq iqtisadi münasibətlər sistemində kapitalın beynəlxalq hərəkəti | 2 | | |
| 7. | Beynəlxalq valyuta-maliyyə münasibətləri. | 2 | | |
| 8. | Dünya valyuta sistemi: mahiyyəti, növləri və funksiyaları | 2 | | |
| 9. | İşçi qüvvəsinin beynəlxalq miqrasiyası | 2 | | |
| 10. | Texnologiyaların beynəlxalq ötürülməsi beynəlxalq iqtisadi münasibətlərin forması kimi | 2 | | |
| 11. | Beynəlxalq və transmilli şirkətlər, onların beynəlxalq iqtisadi münasibətlərdə rolu | 2 | | |

| | | | | |
|---|---|---|---|---|
| 12. | Beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsinin formalaşması, təkamülü və müasir sistemi | 2 | | |
| 13. | Beynəlxalq iqtisadi münasibətlərin təşkilati-hüquqi əsasları və tənzimlənməsi | 2 | | |
| 14. | Yeni beynəlxalq iqtisadi qayda və iqtisadi təhlükəsizlik problemləri | 2 | | |
| 15. | Birləşmiş Millətlər Təşkilatı və beynəlxalq iqtisadi münasibətlərdə onun rolu | 2 | | |
| **CƏMİ: 30 saat** | | | | |
| ***ÜMUMİ CƏM: 60 saat*** | | | | |
| | | | | |
| **Fənn müəllimi: T.T.Məmmədzadə** | | | | |